# Zamanı qabaqlayan lider

**Tarixin gedişatını dəyişdirməyə, milləti, dövləti dirçəlişə aparmağa yalnız istedadlı liderlər qadirdir. Amerika psixoloqu Ralf Stoqdillinin fikrincə, lideri əsasən beş keyfiyyətlə xarakterizə etmək olar: Ağıl; başqalarından üstünlüyü; özünə əminlik; yüksək enerjililik; məqsədin dəqiq müəyyənləşdirilməsi.**

Bu gün ölkəmizin inkişafında və dünya səviyyəsində tanınmasına səbəb olan səriştəli siyasi rəhbər, təcrübəli diplomat, Prezident İlham Əliyev 1961-ci ildə Bakıda ümumilli lider Heydər Əliyevin ailəsində dünya göz açmışdır. Orta təhsilini Bakıda aldıqdan sonra 1977-ci ildə Moskva şəhərindəki Beynəlxalq Münasibətlər İnstitutuna daxil olmuşdur.

Beynəlxalq münasibətlərin və diplomatiyanın ən incə məqamlarına, yüksək tarixi biliglərə yiyələnən cənab İlham Əliyev bununla kifayətlənməmiş, 1982-ci ildə həmin universitetin aspirantura şöbəsinə qəbul olmuşdur. 1985-ci ildə dissertasiya müdafiə edərək tarix elmləri namizədi dərəcəsi almışdır. Gənc siyasətçi 1985-1990-cı illərdə təhsil aldığı institutda müəllim işləmişdir. Müasir Azərbaycanın neft siyasətinin geopolitik istiqamətləri barədə geniş tədqiqat işlərinin müəllifi olan İlham Əliyev siyasi elmlər doktoru dərəcəsi almışdır. Prezident İlham Əliyev inkişaf strategiyasında gənclər və idman siyasəti sahəsində çoxsaylı nailiyyətlərin əldə edilməsində xüsusi rol oynamışdır. 1995-ci və 2000-ci illərdə Milli Məclisə keçirilən seçkilər nəticəsində deputat seçilən İlham Əliyev bu sahədə çox uğurlu fəaliyyət göstərmişdir. Seçicilərin etimadını ən yüksək səviyyədə doğrultmuş, eyni zamanda ölkədə gedən inkişafın, həyata keçirilən islahatların normativ-hüquqi bazası olan bir sıra qanun layihələrinin hazırlanması və qəbul edilməsində əvəzsiz xidmət göstərmişdir.

Prezident İlham Əliyev təkcə neft sahəsi və daxili siyasətlə deyil, həmçinin 2001-2003-cü illərdə Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyətinin rəhbəri olaraq fəaliyyət göstərmişdir. O, Azərbaycan həqiqətlərinin bütün dünyada yayılması üçün yorulmadan çalışmışdır. Gənc yaşlarından yiyələndiyi diplomatiyanın bütün sirlərindən məharətlə istifadə edən siyasi xadim beynəlxalq arenada Azərbaycanın mənafeyini məharətlə qorumuşdur. Ulu öndərin ideallarına və siyasi kursuna sadiq qalan Prezident İlham Əliyev qısa zaman kəsiyində Azərbaycanı bütün sahələrdə zirvələrə daşımışdır.

Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqına 2003-cü il 1 oktyabr tarixli müraciətində cənab İlham Əliyevi yeni mərhələdə ölkəyə rəhbərlik etməyə qadir şəxsiyyət kimi gördüyünü bildirdi, mühüm işlərin onun tərəfindən uğurla başa çatdırılacağına dərin inamını diqqətə çatdırdı: “Üzümü sizə – həmvətənlərimə tutaraq qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm.”

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəhbərlik etdiyi müddətdə hər bir vətəndaşın prezidenti olduğunu dəfələrlə demiş və eyni zamanda, bunu əməli fəaliyyətində də ortaya qoymuşdur. Prezidentliyə başladığı ilk gündən İlham Əliyev ulu öndər Heydər Əliyevin siyasi kursunu davam etdirərək, qarşıya qoyulmuş qlobal və lokal əhəmiyyətli məsələlərin həlli üçün bütün siyasi gücündən istifadə etmişdir.

Azərbaycan Respublikasının milli inkişaf sisteminin formalaşdırılmasında müstəsna xidmətlərə malik olan Prezident İlham Əliyevin qəbul etdiyi milli inkişaf strategiyası nəticəsində ölkəmiz bu gün yüksək inkişaf dövrünü yaşamaqdadır. Xarici və daxili siyasətdə əldə edilən uğurlar bu strategiyanın nə qədər düzgün və dəqiq planlaşdırıldığından xəbər verir. Aparılan daxili siyasət, vətəndaşların yüksək rifaha çatdırılması milli inkişaf strategiyasının əsas məqsədlərindən biridir. Dünya iqtisadiyyatının böhran vəziyyətində belə ölkəmizə təsirlərin minimuma endirilməsi məhz bu strategiyanın effektivliyindən xəbər verir.

Məhz ulu öndər Heydər Əliyev dühası və onun varisi Prezident İlham Əliyevin idarəetmə bacarığı sayəsində Azərbaycan bütün təhdidlərə rəğmən hazırda dünyanın ən islahatçı, sabit inkişaf edən və real müstəqilliyi olan ölkələrindən biridir.

Fəxarət doğuran məqamlardan biri də İlham Əliyevin dünyada dərin analitik təfəkkürə və məqsədyönlü, düşünülmüş siyasi iradəyə malik lider kimi qəbul olunmasıdır. Prezident İlham Əliyevin gərgin fəaliyyəti nəticəsində ölkədə yüzlərlə səhiyyə müəssisəsi, müalicə-diaqnostika mərkəzləri, yeni məktəblər tikildi, təhsil müəssisələrinin maddi-texniki bazası gücləndirildi. Bakı-Tbilisi-Qars dəmir yolu, Cənub Qaz Dəhlizi, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının fəaliyyətə başlaması, "Şimal-Cənub", "Şərq-Qərb" nəqliyyat dəhlizləri, ümumiyyətlə, nəhəng infrastruktur layihələrinin icrası Azərbaycanı regionun nəqliyyat-tranzit, eləcə də logistika mərkəzinə çevirdi.



Bizi Qarabağımıza qovuşduran payız günlərinin hər anında kitablara sığmayan qəhrəmanlıq dastanı yazılırdı. Bu dastanı Prezidentimiz, müzəffər Ali Baş Komandanımız, İlham Əliyev yazdı. İlham Əliyev sarsılmaz iradəsi, qətiyyəti sayəsində böyük strateq, qalib sərkərdə kimi əbədi olaraq tarixə imza ataraq, 44 günlük Vətən müharibəsinin əsl qəhrəmanı oldu.

Ölkə üçün çətin günlərdə İlham Əliyevin xarici KİV-lərə çoxsaylı müsahibələri praqmatik siyasətçi, hadisələri, prosesləri dəqiq qiymətləndirən, öz mövqeyini əsaslandırmağı bacaran lider olduğunu bir daha nümayiş etdirir, xalqın qələbəyə inamını artırırdı.

Ali Baş Komandan İlham Əliyev tariximizdə bir çox ilklərin müəllifi kimi, bu savaşda da yeni texnologiyaları tətbiq edərək müasir hərb dərsliklərinə düşəcək bir ilkə imza atdı. Memarı İlham Əliyev olan bu böyük əsər millətimiz və dövlətimiz mövcud olduqca qalacaq.

Qazandığı qələbə ilə Azərbaycan xalqını qalib xalqa çevirdi, bir milyon insanı məcburi köçkünlükdən xilas edib, gələcək nəsillərə örnək, güvən verdi.

Azərbaycan son 200 il ərzində ilk dəfə olaraq İlham Əliyevin qüdrəti sayəsində qələbə qazanaraq tarixə düşdü. İllər ötəcək, əsrlər keçəcək, nəsillər dəyişəcək, amma bu qoca dünyanın hərb tarixində bir ad daim yaşayacaq: Qətiyyətli lider, qüdrətli sərkərdə, fenomenal şəxsiyyət, müzəffər Ali Baş Komandan İlham Əliyev.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti bundan sonra da böyük inkişaf yolu keçərək yüksək hədəflərə nail olacaq, Ulu öndər, dahi şəxsiyyət Heydər Əliyevin bütün arzularını gerçəyə çevirəcəkdir.

Artıq iki ilə yaxındır ki, dünya Azərbaycanın işğaldan azad edilmiş ərazilərdəki möhtəşəm quruculuq əzminə şahidlik edir. İlham Əliyevin gərgin əməyi sayəsində Qarabağ və Şərqi Zəngəzurda qısa dövr ərzində həyata keçirilən yenidənqurma işləri: Zəfər yolu, Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsi, Zəngilanda Ağalı kəndinin yenidən qurulması işğaldan azad olunmuş ərazilərimizin bərpasının möhtəşəm nümunələrindəndir. Bu cür nəhəng infrastruktur layihələrinin həyata keçirilməsi məhz İlham Əliyevin böyük siyasi iradəsinin təcəssümüdür.

Dövlət başçımız hakimiyyətinin ilk günlərində bəyan etmişdi ki, mənim siyasi kursum Heydər Əliyev strategiyasının tərkib hissəsi, onun davamıdır. Ulu öndərin siyasəti dəyişməz olaraq qalacaq və Azərbaycan xalqının gələcək təminatının, işıqlı, firavan həyatının qarantının əsas atributu kimi yaşadılacaq. “Heydər Əliyev siyasəti yaşamalıdır. Bu, zamanın tələbidir. Bu, yeganə siyasətdir ki, Azərbaycanı daha da gücləndirəcək, Azərbaycan xalqının həyat səviyyəsini yaxşılaşdırmağa xidmət edəcəkdir”.

İlham Əliyev qısa bir vaxt ərzində çox çevik siyasət həyata keçirərək ölkədə liberal islahatlar aparmaqla yanaşı, demokratik təsisatları gücləndirdi. Qanunlar təkmilləşdirildi, qaydalar yeniləşdirildi, strukturlar beynəlxalq normalara uyğunlaşdırıldı. Daxili siyasət strategiyası ilə yanaşı, xarici siyasətin istiqamətləri müəyyənləşdirildi. Bütün istiqamətlərdə, istər Şərq, istər Qərb yörəsində, istərsə də uzaq Amerika qitəsi ilə olsun, bu siyasətin konturları tamamilə aydın və dəqiq idi. “Biz bütün ölkələrlə əməkdaşlığa açığıq, xarici siyasətimiz səmimidir, dürüstdür” çağırışı ilə dünyanın nüfuzlu beynəlxalq təşkilatlarının yüksək tribunasından dünya dövlətlərinə, aparıcı təşkilatlara, iri şirkətlərin rəhbərlərinə müraciət edərək, Azərbaycan hakimiyyətinin siyasi kursunu bəyan elədi”.

Xalqımızın Zəfəri ilə başa çatan Vətən savaşının yaratdığı əsas reallıqlardan biri Azərbaycanın tarixində yeni inkişaf mərhələsinin başlanmasıdır. Bu mərhələdə qarşıya qoyulan prioritetlər bəllidir və Prezident İlham Əliyevin də elan etdiyi kimi, indi dövlətimizin milli ideyası işğaldan azad olunmuş ərazilərin bərpası, Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulmasıdır.

Bəli, bu gün dönüb geriyə, tarixə nəzər salanda cənab İlham Əliyevin rəhbərliyi ilə ötən 20 ildə keçilən yüksəliş yolunun nə qədər möhtəşəm, nə qədər qürurverici olduğunu görürük. Azərbaycanı inkişaf yoluna çıxaran İlham Əliyev özünün uzaqgörən, qətiyyətli və müdrik siyasəti ilə həm də xalqımızın tarixi arzusunu reallaşdıraraq, torpaqlarımızın işğaldan azad olunmasını təmin etdi.

Qüdrətli Azərbaycan Ordusu Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev yenə də vaxtı və məqamı böyük məharətlə seçdi, "ağıllandırma tədbirləri"ni görünməmiş sürətlə apararaq Ermənistanın Ağdərədəki gizli hərbi bazasını və Qarabağdakı 11 minlik qanunsuz silahlı birləşməsini darmadağın edərək ağ bayraq qaldırmağa məcbur etdi! Möhtəşəm Zəfərə 23 saatlıq əlavə Azərbaycan ərazisindəki erməni silahlılarının tərk-silah olunaraq torpaqlarımızdan təmizlənməsinə son nöqtəni qoymuş oldu.

Ali Baş Komandan İlham Əliyev təkcə dünənin və bu günün deyil, həm də gələcəyin lideridir. Prezident seçkilərinin əsas məğzi vətəndaşların İlham Əliyevi qalib elan etməsidir. 2024-cü ilin 7 fevral növbədənkənar seçkilərində də Azərbaycan seçiciləri cənab İlham Əliyevə səs verməsi tariximizin ən möhtəşəm Zəfərinə öz münasibətlərini bildirəcəkdir.

***Günel MƏLİKLİ,***
***AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent***